# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

15 (67) 17 oktyabr 2016-cı il — İctimai-siyasi qəzet


## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləğinin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin elm, təhsil, mədəniyyət, iqtisadiyyat, dövlət idarəçiliyi və digər sahələrdə böyük əməyi olan şəxslərin xidmətlərinin qiymətləndirilməsi və onların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləği artırılaraq 1300 (min üç yüz) manat müəyyən edilsin.

2. "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 329, № 10, maddə 587; 2004, № 12, maddə 1006; 2005-ci il, № 3, maddə 167; 2006-cı il, № 11, maddə 939; 2007-ci il, № 12, maddə 1235; 2008, №7, maddə 621) 2-ci hissəsində "min" sözü "1300 (min üç yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2016-cı il noyabrın 1-dən qüvvəyə minir.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 oktyabr 2016-cı il.***

## Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və tərəqqisi uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərərək Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş şəxslərin və onların ailə üzvlərinin sosial müdafiəsini daha da gücləndirmək məqsədilə qərara alıram:

1. Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 1300 (min üç yüz) manat müəyyən edilsin.

2. "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 594; 2008, № 5, maddə 373; 2013, № 8, maddə 897) 1-ci hissəsində "1000 (min)" sözləri "1300 (min üç yüz)" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 954 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 897) 1-ci hissəsi ləğv edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman 2016-cı il noyabrın 1-dən qüvvəyə minir.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 oktyabr 2016-cı il.***

## 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktını və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti altı ay müddətində:

1.1. 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının 1 – 29-cu hissələri ilə edilmiş dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Referendum Aktına uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Referendum Aktına uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktına uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 oktyabr 2016-cı il.***

AZƏRBAYCAN VETERANI

# 18 oktyabr Azərbaycanın dövlət müstəqilliyi günüdür

*20 il öncə Azərbaycan Ali Soveti dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə, qərar verməyi bir həftə sonraya saxlayır. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edilir. 1993-cü ildə ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədi və dönməz etdi.*

Ötən əsrin sonlarında Sovetlər Birliyi ideoloji böhran həddinə çatdı. 90-cı illərin əvvəllərində SSRİ-nin demək olar ki, əksər regionlarında millətlərin və xalqların azadlıq hərəkatı başladı. İmperiyanın siyasi beyin mərkəzi Sovet hərb maşınının köməyi ilə müxtəlif bölgələrdə o cümlədən Bakıda qanlı qırğınlar törətməklə SSRİ-yə süni nəfəs verməyə çalışırdı. Lakin bu mümkün olmadı. 1991-ci ilin avqustunda İttifaqın ləğv edilməsi haqqında qərar verildi və Sovetlər Birliyi dünya xəritəsindən silindi. SSRİ-yə daxil olan digər müttəfiq respublikalar kimi həmin ilin oktyabrın 18-də Azərbaycan Ali Soveti də dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul edilib və suveren dövlət kimi Azərbaycan Respublikası dünya birliyinin üzvü olub. Dövlət müstəqilliyi haqqında konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin qayıdışından sonra əldə edir. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycan siyasi müdriklik gətirdi. Məhz milli liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı.




Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Respublikamızı Şərqdə ilk demokratik cümhuriyyət olan AXC-nin varisi elan edən ümummilli lider Heydər Əliyev müstəqilliyi qorumağı onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Ulu öndər qarşıya çıxan bütün sərhədləri yardı və qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Əsl müstəqillik isə öz sərvətlərinin tam sahibi olmaqdır. 1994-cü ilin 20 sentyabrında Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə əgər müstəqillik Azərbaycan suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır. Məhz dövlət müstəqilliyi Heydər Əliyev faktı yeni və qlobal dünyada ölkələrin yerini müəyyənləşdirdi. Azərbaycanın dünyaya, dünyanın Azərbaycana gərəkli olduğunu sübut etdi.

# Azərbaycan ümumrusiya veteranları ictimai təşkilatlarının yubiley konfransında təmsil olunub



*Moskvada ümumrusiya veteranları ictimai təşkilatlarının 60 illik yubileyi münasibətilə konfrans keçirilib. İyirmi iki ölkədən nümayəndələrin qatıldığı tədbirdə Azərbaycanı Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov təmsil edib.*




İlk öncə konfrans iştirakçıları Sovet İttifaqı marşalı Georgi Jukovun abidəsi önünə əklil qoyublar. Daha sonra konfrans öz işinə başlamışdır. Yubiley konfransında Rusiya Veteranlar Təşkilatının sədri, ehtiyatda olan ordu generalı Mixail Moiseyev çıxış edib. Konfransda çıxış edən Cəlil Xəlilov İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin əldə olunmasında Azərbaycanın böyük rolundan, azərbaycanlıların qəhrəmancasına vuruşaraq ən yüksək fəxri adlara, orden-medallara layiq görülməsindən, qanlı döyüşlərdə 300 mindən çox soydaşımızın həlak olmasından danışıb. Ölkəmizdə 9 May - Qələbə Gününün hər il böyük təntənə ilə qeyd edildiyini, veteranlara dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini bildirən C.Xəlilov tədbir iştirakçılarının diqqətini ermənilərin tarixi, o cümlədən İkinci Dünya müharibəsinin tarixini saxtalaşdırmaq cəhdlərinə yönəldib, belə münasibətin yolverilməzliyini bildirib. Azərbaycanın bu məsələlərdə tutduğu qəti və obyektiv mövqeyi tədbir iştirakçılarının diqqətinə çatdıran C.Xəlilov deyib: "Bu gün Azərbaycanın ərazisinin 20 faizdən çox hissəsini işğal altında saxlayan Ermənistan təcavüzkarlıq siyasətini davam etdirməklə qalmır, alman faşizminə xidmət göstərmiş erməni cəlladları general Dronun, Qaregin Njdenin bəraətinə çalışır. Azərbaycan cəmiyyəti, o cümlədən veteranlar bunu kəskin şəkildə qınayıb, dünya ictimaiyyətini erməni faşizminin ifşasına biganə qalmamağa səsləyib. Bununla bağlı Azərbaycan veteranları adından müraciət hazırlanaraq MDB ölkələrinin dövlət və hökumət başçılarına, həmin ölkələrin parlament üzvlərinə, veteran təşkilatlarına, beynəlxalq qurumlara göndərilib".



Müraciətin mətnini yubiley konfransının rəyasət heyətinə təqdim edən C.Xəlilov Azərbaycan Veteranlar Təşkilatının xüsusilə MDB ölkələrinin müvafiq təşkilatları ilə əməkdaşlıq əlaqələrinə önəm verdiyini, ötən illərdə qurumun bu istiqamətdə fəaliyyətinin daha səmərəli olduğunu vurğulayıb. Sonra C.Xəlilov yubiley münasibətilə Rusiya Veteranlar Təşkilatının muzeyinə qiymətli hədiyyələr təqdim edib.Həmçinin Rusiya Veteranlar Təşkilatının sədri, ehtiyatda olan ordu generalı Mixail Moiseyevə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti adından "Veteran həmrəyliyi" medalı təqdim olunub.

# "Zəfər yolu"muz

12 oktyabr 2016-cı il tarixində Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında yazıçı Azər Hacıbəylinin Azərbaycan Respublikasının Milli Qəhrəmanı Nadir Əliyevin əziz xatirəsinə ithaf edilmiş "Zəfər yolu" poemasının təqdimat mərasimi keçirilmişdir.

Tədbiri Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov açaraq, yazarın həyat yolundan, fəaliyyətindən və "Zəfər yolu" poemasından bəhs etmişdir.

Qeyd edək ki, "Zəfər yolu" ixtisasca filoloq olan Azər Hacıbəylinin hərbi-vətənpərvərlik mövzusunda yazdığı dördüncü poemasıdır. Bundan öncə onun "Vətən daşı", "Addım at!" və "Doxsan dördün payızı" adlı poemaları çapdan çıxmışdır. Öz əsərlərində ordu quruculuğuna nəzər salan müəllif cəsur və rəşadətli Azərbaycan əsgərinin torpaqlarımızı düşmən əsarətindən azad edəcəyinə qəti inam aşılayır. Xüsusilə, "Zəfər yolu"nda nikbinliyin təntənəsi hiss edilir.







Çətin anlarda Vətənin dadına çatan tarixi və əfsanəvi qəhrəmanların mənəvi dünyasını əks etdirən Azər Hacıbəyli qəhrəmanların yaşantılarını, psixoloji məqamları poetik şəkildə ifadə edir. Bu əsərlərdə həmçinin, Azərbaycanın qədim dövlətçilik və qəhrəmanlıq ənənələri, Azərbaycan xalqının müstəqilliyimizin ilk illərində üzləşdiyi çətinliklər və bunların aradan qaldırılması istiqamətində görülən böyük miqyaslı işlərdən bəhs edilir.

"Addım at!"da Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun respublikamızın sərhədlərini aşmış rəşadəti və müstəsna şücaəti, hərbi-taktiki biliyi ilə təkbaşına erməni quldurlarına çox böyük zərbə vurması, düşmənin çoxlu sayda canlı qüvvəsini sıradan çıxarması, ona ağır mənəvi zərbə vurması göstərilir. Mübariz İbrahimov Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzi, fədakarlıq simvolu, özünəinam, qələbəyə və şanlı zəfərə çağırışın təcəssümü kimi canlandırılır.

"Doxsan dördün payızı"nda Ulu Öndərimiz Heydər Əliyevin əziz xatirəsinə böyük ehtiram, irsinə sadiqlik, onun və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlət və ordu quruculuğu sahələrində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması yolunda gördüyü böyük işlərə poetik işıq salınır.

"Zəfər yolu" Azərbaycanın Milli Qəhrəmanı Nadir Alış oğlu Əliyevin əziz xatirəsinə ithaf olunmuşdur. Düşmənlə son damla qanınadək ölüm-dirim savaşına girəcəyinə söz verən Nadir Əliyev doğma Ağdamın Qiyaslı kəndi uğrunda döyüşlərdə 1993-cü ilin iyul ayının 22-də qəhrəmancasına həlak olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 1994-cü il tarixli 218 saylı fərmanı ilə ölümündən sonra baş leytenant Nadir Alış oğlu Əliyev "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Ön sözün müəllifi Qarabağ müharibəsi və təhlükəsizlik orqanları veteranı, ehtiyatda olan polkovnik Sucəddin Abdullayevin olduğu, "Əməkdar jurnalist" Baxşeyiş Abbasoğlunun redaktorluğu ilə işıq üzü görən kitabda Nadirin qəhrəmanlığa aparan yolunun vacib məqamları əks edilmişdir. Azər Hacıbəyli qəhrəman oğullar yetişdirən Ağdam torpağının tarixinə ekskurs edir, ürək ağrısı ilə Ağdam şəhərinə əllərimizin çatmamasını vurğulayır, bunun səbəblərini göstərir, sonra isə Vətən uğrunda canını fəda etmiş oğullarımızdan biri olan Nadir Əliyevin üzərində dayanır. O, eyni zamanda Nadirin daxili aləmini, professional fəaliyyətini imkan dairəsində poetik dillə ifadə edir. Haqlı olaraq göstərir ki, hər bir dövlətin ehtiyacı olan və "gizli, gözəgörünməz cəbhə" adlandırılan təhlükəsizlik orqanlarında seçilmişlər xidmət edir. Nadirə də bu imkan nəsib olmuşdu. Amma Vətənin ağır durumu qəhrəmanı öz istəyilə səngərə gətirib çıxardı və o, sonadək düşmənlə döyüşdü. Müəllif onun şəxsi keyfiyyətlərindən, döyüşçü şücaətindən bəzi anları işıqlandırmaqla, qəhrəmanın portretini canlandırmağa çalışmış və buna nail olmuşdur.

Əsərin sonunda 2016-cı ilin aprel ayında erməni təxribatlarına cavab olaraq Silahlı Qüvvələrimizin keçirdiyi uğurlu hərbi əməliyyatlara da yer ayrılır, şərəfli keçmişin və bu günün Zəfər yoluna apardığına dair əminliklə fikir ifadə edilir. Azər Hacıbəylinin poema daxilində yeri gəldikcə özünün vətənpərvərlik düşüncələrini də təqdim etməsi, oxucunu sanki hadisələrin içərisinə dəvət edən müraciətləri əsəri canlı edir və bununla nikbin əhval-ruhiyyə tamamlanmış olur.



"Zəfər yolu"nun proloqunda müəllifin "Azərbaycan zabiti" adlı marşı da oxuculara ilk dəfə təqdim olunur. Vacib epizodlardan biri işğal olunmuş ərazilərimizdəki dağlarımızın, təpələrimizin bu gün düşməndən geri alınmış Lələtəpə yüksəkliyinə həsəd aparmasının təqdimatıdır. Şuşada bir qaya nərə çəkərək bildirir: "Zirvəmin qarlı təpəsi həsrətdir bayrağa, türk oğlu, ərə!" Digər dağlarımız, o cümlədən Xocalı yurdundakı dağlar, təpələr də bu haraya qoşulub bildirirlər:

Olsa da bizlərdə böyük dağ səbri,
Bir gün vulkan olub püskürərik biz,
Zəlzələ edərik titrədib yeri,
Qalmaz yağılardan nə əsər nə iz!

Müəllif bildirmək istəyir ki, hətta dağlar da, qayalar da Vətən adı gələndə dil açırsa, gərək hamı - alim də, fəhlə də, şair də, əsgər də düşünsün ki, düşmənə qarşı nə edə bilər. Düşmənlə üz-üzə dayanan əsgərimizə belə ruh yüksəkliyi aşılayan fikirlər, sözlər deyilməsi bu günün tələbidir, mənəvi dəstəyin təcəssümüdür. Yenə də müəllifin fikirləri ilə desək, gərək "yurda xidmət etsin sənət, elm də..."

Müəllifə görə, son damla qanınadək döyüşən və düşmənə baş əyməyən qəhrəman Nadir hansı daxili gücə malik idisə, hərbçilərimiz də, hətta adi vətəndaşımız da o ovqatda olmalıdır ki, "Zəfər yolu"nu başa çatdıraq."

Azər Hacıbəyli əmindir ki, torpaqlarımız işğaldan mütləq azad olunacaq. Müəllif "Zəfər yolu"na öz yükü ilə çıxmışdır. Torpaqlarımız işğaldan azad olunanda hamımız bərabər və əminliklə deyəcəyik: "Zəfər gününüz mübarək! Biz bu günü gözləməklə kifayətlənməmişik. Biz bu müqəddəs günü yaxınlaşdırmaq üçün çalışmışıq. Zəfər yolunda addımlamışıq".

Tədbirdə eləcə də, Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları, ictimai təşkilatların nümayəndələri, ziyalılar, gənclər və media nümayəndələri iştirak etmişdirlər. Biz də öz növbəmizdə arzu edirik ki, müəllifə Qələbə marşını qələmə almaq nəsib olsun! "Zəfər nəğmə"miz Şuşada, Cıdır düzündə səslənsin!

Ümid edirik ki, oxucular "Zəfər yolu"nu maraqla qarşılayacaqlar.

AZƏRBAYCAN VETERANI

# Astara rayonunda hərbi-vətənpərvərlik mövzusunda tədbir keçirilmişdir

Sentyabrın 16-da Astara rayon Icra Hakimiyyətində Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təşkilatçılığı ilə hərbi-vətənpərvərlik mövzusunda tədbir keçirilmişdir. Tədbirin keçirilməsində məqsəd gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onlarda vətənə, xalqa məhəbbət hisslərinin gücləndirilməsi olmuşdur.



Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov ölkəmizdə ordu quruculuğu sahəsində qazanılmış uğurlardan, hərbi vətənpərvərlik mövzusunun Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının fəaliyyətində həmişə prioritet istiqamətlərdən olduğunu bildirərək, torpaqlarımızn qorunması sahəsində qarşıda duran vəzifələrdən danışdı.

Tədbirdə Gənclər üçün Təhsil mərkəzinin direktoru Fəxrəddin Həsənzadə, rayon veteranlar Təşkilatının sədri Rafiq Əliyev mövzu ilə bağlı çıxış ediblər. Çıxışda BVM iştirakçılarının daim gənclərlə görüşləri, onların hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmalarının əhəmiyyətindən danışaraq, gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulamışlar.

Tədbirin sonunda Respublika Veteranlar Təşkilatının sədr müavini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, Böyük Vətən Müharibəsi iştirakçıları və veteranlara göstərdiyi diqqət və qayğıya görə Astara rayon İcra hakimiyyətinin başçısı Qəzənfər Ağayevə, Respublika Veteranlar Təşkilatı Rəyasət Heyyətinin qərarı ilə təltif olunduğu "General Həzi Aslanov" yubiley medalını təqdim etmişdir.

***Rafiq Əliyev***
***Astara rayon Veteranlar Təşkilatının sədri***

# Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları Beynəlxalq Əlillər Cəmiyyəti İB-in qonağı olmuşlar

Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları - Almaniyadan gəlmiş psixoloq Qalina Xainzelmann və Latviyadan gəlmiş psixoterapevt Marina Daliba dünən "Beyənlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin qonağı olmuşlar. İctimai Birliyin İdarə Heyəti üzvləri və "Əlillər Dünyası" qəzetinin əməkdaşları ilə birgə onlar İctimai Birliyin Mə-



dəniyyət Şöbəsinin uşaqlardan ibarət rəqs qrupunun üzvləri ilə də görüşmüşlər.

Rəqs qrupu bu yaxınlarda Gənclər və İdman Nazirliyi, MDB ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu və "Dan" Beynəlmiləlçi Gənclər İctimai Birliyinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən əlilliyi olan gənclərin "Şərq nağılı" Beynəlxalq Yaradıcılıq Festivalında iştirakına görə Gənclər və İdman Nazirliyi tərəfindən Diplomla təltif edilmişdilər. Həmin Diplomları İctimai Birliyin sədri Tahir Xudiyev, Marina Daliba və Qalina Xainzelmann görüş zamanı uşaqlara təqdim etdilər. Sonra uşaqların ifasında "Azəri", "Ərəb" və digər rəqslər nümayiş etdirildi. Balaca müğənni, məcburi köçkün ailəsindən olan Röya Əhmədova "Sultanım" mahnısını ifa etdi və qonaqları da rəqsə dəvət etdi. Qonaqlar Azərbaycan milli rəqslərinə, Azərbaycan musiqisinə valeh olduqlarını, bu görüşdən böyük zövq aldıqlarını bildirdilər, uşaqlara və İctimai Birliyə fəaliyyətində daha böyük uğurlar arzu etdilər.

***"Əlillər Dünyası"***

# Qabil-90

Sentyabrın 29-da M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında poeziyamızın görkəmli nümayəndəsi, Xalq Şairi Qabil İmamverdiyevin (Qabil) anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib. Respublikanın tanınmış elm, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi gecə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə reallaşıb. Əvvəlcə tədbir iştirakçıları unudulmaz şairin şeir kitablarının nümayiş olunduğu sərgi ilə tanış olublar. Daha sonra şairin keçdiyi ömür yolunu əks etdirən fotoslayd təqdim edilib.




Tədbirdə mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev çıxış edərək Qabilin həyat və yaradıcılığından söz açıb.

Qeyd olunub ki, Qabilin lirik, epik şeirləri və poemaları geniş oxucu marağına səbəb olub. Şairin şeirləri həmişə aktualdır, bu səbəbdən də oxunur, əzbərlənir, ən mötəbər tədbirlərdə qiraət ustaları tərəfindən şövqlə səsləndirilir.

Nazir müavini vurğulayıb ki, Qabilin yaradıcılıq yolu həmişə şəxsiyyəti ilə həmahəng olub. Həyatda mehriban,



səmimi və duzlu zarafatları ilə yanaşı, onun haqqında yaradılan maraqlı lətifələr də xalqa çoxdan bəllidir. Bu, əlbəttə, şair üçün ən böyük səadətdir. Bildirilib ki, daim poetik duyğularla qəlbində Vətəninə, millətinə tükənməz məhəbbəti olan Qabil böyük ictimai hisslər, duyğularla, gərgin zəhməti və yaradıcılıq axtarışları, canlı həyat müşahidələri ilə vicdanla xalqına xidmət edib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq Yazıçısı Anar Qabilin Azərbaycan poeziya tarixindəki xidmətlərindən danışıb. Deyib ki, o, azad söz sahibi olmaqla yanaşı, hər zaman xalqını, millətini sevib və dərdinə şərik çıxıb. Şairin həqiqətə, düzgünlüyə, obyektivliyə üstünlük verdiyini deyən natiq onun əsl vətəndaş mövqeli insan olmaqla yanaşı, təəssübkeş olduğunu da qeyd edib.

Diqqətə çatdırılıb ki, uzun illər Azərbaycan Yazıçılar Birliyində ağsaqqallar şurasının sədri kimi fəaliyyət göstərən Qabilin ədəbi və ictimai fəaliyyəti dövlət tərəfindən hər zaman yüksək qiymətləndirilib. Görkəmli şair bir sıra orden və medallara, o cümlədən Azərbaycan Respublikasının ali dövlət təltiflərinə - "Şöhrət" və "İstiqlal" ordenlərinə layiq görülüb.

Gecədə çıxış edən şairin qələm dostları onun həyat və yaradıcılığından, Azərbaycan poeziyasına bəxş etdiyi dəyərli töhfələrdən danışaraq xatirələrini bölüşüblər.

Tədbir konsert proqramı ilə davam edib. Konsertdə şairin şeirlərinə bəstələnmiş mahnılar ifa olunub, şeirləri səsləndirilib. Tədbirdə Müharibə, Əmək və Silahlı qüvvələr veteranları Təşkilatının əməkdaşları da iştirak ediblər.

# İlk səma şahinimiz Fərrux ağa Qayıbov

Azərbaycan Hərb Tarixi Muzeyində ilk azərbaycanlı hərbi təyyarəçi, I Dünya müharibəsinin iştirakçısı Fərrux ağa Məmmədkərim oğlu Qayıbovun anadan olmasının 125 illik yubileyinə həsr olunmuş "İlk səma şahinimiz" adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbir iştirakçılarına Fərrux ağa Qayıbovun həyat və döyüş yolu barədə ətraflı məlumat verib: Fərrux ağa 2 oktyabr 1891-ci ildə Qazaxın Qıraq Salahlı kəndində doğulub. Atası Məmmədkərim ağa da hərbçi olub. O, imperator adına Qafqaz Leyb-Qvardiya Konvoy Eskadronunun dördüncü müsəlman vzvodunun yunkeri olub. 27 iyul 1877-ci ildə əlahəzrət imperatorun əmri ilə nizami qoşunlarında uzun illər nümunəvi xidmətinə görə ona praporşik rütbəsi verilib. Yüksək xidmətə görə "Müqəddəs Stanislav" ordeni də almış, sonrakı illərdə Məmmədkərim ağa Qayıbov Qazax və Yelizavetpol qəzalarında məhkəmə rəisi, Cavanşir və Yelizavetpol quberniyalarında polis pristavlığında sahə rəisi vəzifələrində çalışır. Atasını çox erkən itirən Fərrux ağa dövrünün görkəmli maarifçisi, əmisi Səməd ağa Qayıbovun himayəsində böyümüşdür. Əliağa Şıxlinskinin məsləhəti ilə Tiflis Kadet Korpusunda təhsil alır. 1910-cu ildə oranı əla qiymətlərlə bitirir, üçillik Peterburq Konstantin Topçuluq Məktəbinə daxil olur. Burada da ən çalışqanlardan olur, hətta topdan sərrast atəş açdığı üçün birinci mükafat alır. I Dünya müharibəsinin ən ağır döyüşü 1916-cı il sentyabrın 12-də Vilnüs istiqamətində Boruni adlı yerdə baş vermiş səma döyüşü olub. Məhz bu döyüşdə poruçik Qayıbov qərargah rəisinin əmri ilə düşmən diviziyasının mövqelərini bombardman edib. Daha sonra alman qırıcıları onun təyyarəsinə zərbə endiriblər. Qeyri-bərabər döyüşdə poruçik düşmənin 3 qırıcı təyyarəsini vurub, özü isə təyyarə ilə birgə yerə çırpılaraq həlak olub. Döyüşlərdə göstərdiyi



şücaətlərə görə Fərrux ağa Qayıbov bir çox ordenlərlə təltif olunub". Habelə, yaxın zamanlaradək poruçik Fərrux ağa Qayıbovun dəfn olunduğu yer naməlum qalmasından və Belarusiyalı könüllülər Boruna qəsəbəsi yaxınlığındakı çağdaş dövrümüzdə bərpa edilən alman məzarıstanında Fərrux Qayıbovun uyuduğu son mənzilini aşkarlamasından bəhs etdi.

Daha sonra muzeyin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov çıxış edərək, I və II Dünya müharibələrinin səbəbləri, Azərbaycanın iştirakı, Bakı neftinin savaşlardakı rolu, azərbaycanlı zabitlərin itkiləri və Sarıqamış əməliyyatı barədə ətraflı məlumat verib. O cümlədən, Fərrux ağa Qayıbovun Birinci Dünya Müharibəsi zamanı səma döyüşlərində şücaətlər göstərdiyini, düşmənin silah anbarları və qərargahlarını dağıtdığını, 1913-cü ildə hərbi məktəbi bitirərək podporuçik rütbəsi alan Fərrux Ağanın xidmət etmək üçün 39-cu artilleriya briqadasına göndərildiyini, sonradan isə məşhur İlya-Muromets ekipajına qəbul olunduöğunu dedi: "Birinci Dünya Müharibəsi başlayanda Fərrux ağa Qayıbovu Qərb cəbhəsindəki 11-ci Aviasiya korpusuna göndərirlər. Poruçik Qayıbov 1916-cı il sentyabrın 12-də Qərb cəbhəsi qərargahının tapşırığı ilə Borınaya



hücum edir, almanların mövqelərini bombardman edir, hər şeyi külə döndərir. Onun təyyarəsinə 4 alman qırıcısı hücuma keçir. Qayıbov onların üçünü yandırır və aldığı zərbədən təyyarə ilə yerə çırpılıb həlak olur. Almanlar təyyarəçinin igidliyinə heyran qalırlar. Səhəri gün alman təyyarələrinin atdığı kağızlarda Qayıbovun və həyatinin qəhrəmancasına vuruşaraq həlak olduğu və onlar tərəfdə şərəflə dəfn edildiyi yazılırdı. Almanlar qəhrəman təyyarəçilərin məzarı başında yaylım atəşi də açırlar. Fərrux Qayıbovun təyyarəsi almanların müharibə boyunca vurduğu yeganə rus bombardmançı təyyarəsi olur".

Tədbirdə çıxış edənlər Fərrux ağa Qayıbovun həyat və yaradıcılığından bəhs ediblər. Bildirilib ki, Fərrux ağa Qayıbov hələ hərbi məktəbdə oxuyarkən iti zehni, igidliyi, topdan atəş açmaq bacarığı ilə öz yoldaşlarından fərqlənirdi, o Azərbaycanımızın ilk səma şahini idi.

Tədbiri yekunlaşdıran muzey rəisi Ə.Qənizadə zalda gənclərin olmasını xüsusi vurğulayaraq,onların hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində bu tip tədbirlərin vacibliyini vurğuladı. Beləki tədbirdə 6 nömrəli liseyin də şagirdləri məktəbin hərbi rəhbəri Əli İsmayılov ilə birlikdə iştirak edirdilər. Şagirdlər muzey ilə tanış oldular, ilk səma şahinimiz haqqında bilmədiklərini öyrəndilər.

Tədbir Fərrux ağanın həyat və yaradıcılığından bəhs edən film ilə yekunlaşdı. Filmdə tədqiqatçı Şəmistan Nəzirli Fərrux Ağa haqqında az bilinən faktları iştirakçıların nəzərinə çatdırdı.

*Səidə Abdullayeva*

# Respublika Veteranlar Təşkilatı gənclərin vətənpərvərlik tərbiyəsi işinə xüsusi diqqət ayırır



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!" adlı layihənin icrasını təmin etmək məqsədi ilə 07 oktyabr 2016-cı il tarixdə Masallı rayonunda seminar-müşavirə keçirtmişdir.

Layihının rəhbəri - Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general- mayor Rzayev Dadaş Qərib oğludur.

Seminar-müşavirəni Respublika Veteranlar Təşkilatinın Təşkilat və Analitik İnformasiya şöbəsinin müdiri Babayev Lətif Şükür oğlu açaraq layihə haqqında məlumat verib.

Layihə Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.

Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.

Layihənin əsas məqsədi ölkədə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlərdə yaxından iştirak etmək, Azərbaycan dövlətinin həyata keçirdiyi Dövlət Gənclər siyasətinə dəstək vermək, gənc nəslə hərb tariximiz, döyüş ənənələrimiz, milli qəhrəmanlarımız, tarixi abidələrimiz haqqında geniş bilgilər çatdırmaqla maarifləndirmə işləri aparmaq, gənc nəslin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına hər an hazır olmaq ruhunda yetişmələri məqsədilə müvafiq təbliğat işləri aparmaq, yeniyetmə və gənclərə ən ağır problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı Azərbaycanın dövlət mövqeyinin çatdırılması ilə onları hərtərəfli məlumatlandırmaqdır.

Seminar-müşavirəyə Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı, Biləsuvar şəhər (rayon) veteran təşkilatlarının sədrləri, eyni zamanda Masallı rayon Veteranlar Təşkilatının əməkdaşları, həmin rayonun fəal gəncləri, veteranları, şəhid ailələri, müvafiq dövlət və ictimai təşkilatlarının nümayəndələri iştirak etmişdir.

Seminar-müşavirədə "Azərbaycan qəhrəmanlar diyarıdır", "Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsidir", "Torpaq uğrunda ölən varsa Vətəndir", "Masallı qəhrəmanları" mövzularında məruzələr dinlənilib, çıxışlar olub. Tədbirin sonunda bir neçə şəhid ailəsinə ərzaq yardımı edilib.

AZƏRBAYCAN VETERANI

# День пожилых людей в Православном религиозно-культурном центре Бакинской епархии

В Православном религиозно-культурном центре Бакинской епархии состоялось мероприятие - День пожилых людей, которое было проведено Ветеранской организацией Азербайджана и Исполнительной властью Ясамальского района. Архиепископ Бакинский и Азербайджанский Александр, тепло поприветствовав собравшихся ветеранов войны и труда, отметил, что в наше время была заложена добрая традиция отмечать как профессиональные, так и народные, и религиозные праздники, в частности, День пожилых людей.

- Мы живем с вами на Кавказе, - отметил архиепископ, - где особое отношение к людям пожилого возраста, аксакалам, их уважают и к их советам прислушиваются, во многих организациях действуют советы старейшин. Когда нужно принять важное решение, обычно собирают совет старейшин, чтобы выслушать их мнение по важнейшим вопросам политической и экономической жизни страны.

День пожилых людейк Это люди, которые строили страну, защищали ее на войне и самоотверженно трудились в тылу, чтобы обеспечить фронт военным оборудованием, снарядами, снаряжением, продовольствием. И эти люди не забыты. Молодежь - наше будущее, и мы делаем все необходимое для ее развития и становления. Однако игнорировать опыт старшего поколения не имеет права никто. Возьмем Сумгайыт и многие другие города, без которых невозможно представить Азербайджан. Их строило старшее поколение, которое обладает большим жизненным опытом, и их слова молодежь воспринимает с вниманием и пониманием. В религии старец - это мудрый человек, к которому люди приходят со всех концов света за добрым советом. И многие находят свой жизненный путь после общения со старцем. И в гражданском обществе стали прислушиваться к советам ветеранов труда. Они могут передать свой опыт молодым политикам, дипломатам, бизнесменам, чиновникам. Ветераны готовы поддержать созидательную работу, чтобы развивалась экономика, помочь молодым людям идти правильным путем. Архиепископ Александр поздравил ветеранов войны и труда с праздником, пожелал им доброго здоровья, крепости сил, продолжать активно жить и помогать молодым людям. Гости тепло и сердечно поблагодарили владыку за участие в этом празднике. Затем с поздравлениями выступил заместитель главы Исполнительной власти Ясамальского района. На мероприятии также выступил заместитель председателя ветеранской организации, полковник Джалил Халилов. Он рассказал о своей поездке в Москву, участии в конференции, посвященной 60-летнему юбилею Общероссийской организации ветеранов. За эти годы ветераны войны внесли огромный вклад в дело военно-патриотического воспитания молодежи. Они и сегодня продолжают эти добрые традиции, заложенные десятки лет назад. Однако в наши дни некоторые политические круги стараются принизить авторитет Великой победы во Второй мировой войне - распространяют всякого рода измышления клеветнического характера, фальсифицируют историю Великой Отечественной войны. Ветераны войны говорят, что такому не должно быть места, история должна оставаться такой, какая она есть. Оратор также рассказал о деятельности Ветеранской организации Азербайджана, вкладе в военно-патриотическое воспитание. Он напомнил участникам конференции, что и на пространстве СНГ действуют профашистски настроенные силы. Они прославляют своих "героев", стоявших во главе легионов, сражавшихся против Советской армии, которая несла немалые потери. На государственном уровне таким "героям" устанавливают памятники, их именами названы улицы и проспекты, широко отмечаются даты их рождения. Ветеранская организация Азербайджана неоднократно выступала с разоблачительными материалами об их деятельности.



Президент Азербайджанской Республики Ильхам Алиев особо подчеркнул важность того, что ветераны обратились с обращением к главам правительств ряда стран, в котором подчеркивается недопустимость фальсификации истории войны с фашизмом 1941-1945 годов. Оратор также отметил, что День пожилых людей в Азербайджане стали отмечать с 1993 года. По состоянию на 1 июля 2016 года среднемесячный размер пенсий по сравнению с аналогичным периодом прошлого года повысился на 8,3 процента, в том числе на 8,1 процента - среднемесячный размер трудовой пенсии по возрасту. Распоряжением Президента Ильхама Алиева от 19 января 2016 года в текущем году в очередной раз повысился размер пенсии инвалидам Второй мировой войны, как и другим инвалидам других войн. Наряду с этим, 1104 инвалида Второй мировой войны и приравненные к ним лица обеспечены легковыми автомобилями, 117 граждан вышеуказанной категории - жильем. У нас - самый большой размер единовременной материальной помощи ветеранам Второй мировой войны среди стран СНГ. Стало уже традицией, что накануне Дня Победы Президент Ильхам Алиев подписывает распоряжения, связанные с повышением заботы о ветеранах войны, дальнейшим усилением их социальной защиты. Подписанным в этом году главой государства Распоряжением была предоставлена единовременная материальная помощь в размере 1000 манатов участникам Второй мировой войны 1941-1945 годов, в размере 500 манатов - вдовам погибших и скончавшихся на Второй мировой войне. Такова забота о пожилых людях в нашей республике. Ветеран также отметил, что сегодня мы живем в мирном государстве и должны беречь нашу свободу и независимость. За особые заслуги в деле воспитания подрастающего поколения в духе патриотизма Ветеранская организация Азербайджана наградила архиепископа Бакинского и Азербайджанского медалью "Ветеранская солидарность". Заместитель председателя ветеранской организации Джалил Халилов поздравил архиепископа с заслуженной наградой и вручил ему медаль.



Затем выступил капитан I ранга Александр Гритченко, прошедший Великую Отечественную войну с первого и до последнего дня. Он привел очень яркие примеры героизма и доблести Советской армии. В начале своего выступления он привел слова Президента Ильхама Алиева: "Все люди, сражавшиеся на фронте и самоотверженно работавшие в тылу, достойны самого глубокого уважения. Ваш пример чрезвычайно важен для формирования грядущих поколений. Наше молодое поколение должно воспитываться, расти в духе патриотизма". Ветераны с гордостью восприняли эти слова главы государства. А свое выступление А.Гритченко закончил словами из песни:

*"Поклонимся великим тем годам,*
*Тем славным командирам и бойцам,*
*И маршалам страны,*
*И рядовым,*
*Поклонимся всем тем, которых забывать нельзя.*
*Поклонимся! Поклонимся друзья!"*

Окончив свое выступление, капитан I ранга А.Гритченко, ранее преподнесший в дар владыке свою 51-ю книгу "Победа и Память", подарил ему еще одну книгу "Помнить фронтовиков". Затем выступали учащиеся, которые прочли стихи и поздравили ветеранов с праздником.

**ЗЕЙТУЛЛА ДЖАББАРОВ**

# "Победа и Память"

На днях состоялась встреча с ветераном Великой Отечественной войны, писателем, лауреатом премии "Золотое перо", капитаном 1-го ранга Александром Гритченко в Православном религиозно-культурном центре Бакинской епархии.

Архиепископ Бакинский и Азербайджанский Ищеин Александр Геннадьевич открыл встречу, поприветствовав гостей он отметил, что современному обществу необходимо беречь память о страшной войне и о подвигах ветеранов.

Потом слово было предоставлено Гритченко Александру Александровичу.Он начал свое выступление словами Общенационального лидера Азербайджана Г. А. Алиева о победе в Великой Отечественной войне 1941-1945 годов: "Вторая мировая война была самой страшной войной в истории человечества. Во второй мировой войне многие народы Европы, народы бывшего Советского Союза, в том числе и азербайджанский народ, поднялись на борьбу с германским фашизмом. Война была тяжелой и она принесла большие потери, нанесла тяжелый удар многим странам, народам, в том числе и азербайджанскому народу. Лучшие представители, отважные сыны и дочери азербайджанского народа, показали в этих боях примеры большого героизма. А также азербайджанские нефтяники в тяжелых условиях отверженно трудились и посылали на фронт нефть. Я еще раз склоняю голову перед сыновьями и дочерьми Азербайджана, ставшими шехидами в Великой Отечественной войне". Затем он выразил благодарность Президенту Азербайджанской Республики Ильхаму Алиеву за теплое и чуткое отношение к ветеранам Великой Отечественной войны. А. Гритченко также рассказал присутствующим о мало известных фактах, связанных с героями-азербайджанцами". Александр Гритченко принимавший участие в тяжелых боях ВОВ поделился своими воспоминаниями о бывших боевых товарищах. Ветеран, коротко рассказав о подвигах некоторых героев войны, еще раз подчеркнул, что молодое поколение должно помнить и чтить память героев, павших смертью храбрых в священной войне против фашизма. "Никто не забыт, ничто не забыто"- это должно быть основным принципом военно-патриотического воспитания молодежи. Он также привел примеры из книги. Свое выступление он закончил слова их стиха:

Ветераны войны, ветераны.
Нашей Родины гордость и честь.
Ветераны войны, ветераны.
Вам спасибо за то, что вы есть!





После своего выступления военный журналист, капитан 1-го ранга в отставке Александр Гритченко подарил свою последнюю книгу " Победа и память" архиепископу Бакинскому и Азербайджанскому Ищеину Александру Геннадьевичу. Отметим что, книга "Победа и память" - о героях войны с фашизмом всех братских народов Советского Союза, блестящей Победе над врагом 1945 года.

В заключение встречи писателю была вручена почетная грамота от имени Совета ветеранов Бакинского округа ПВО в благодарность за сохранение истории и плодотворную литературную деятельность.

**САИДА АБДУЛЛАЕВА**

# ELAN

## Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!" adlı layihənin icrasını təmin etmək məqsədi ilə 18-19 oktyabr 2016-cı il tarixdə Xaçmaz rayonunda seminar-müşavirə keçiriləcəkdir. Seminar-müşavirə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşları tərəfindən həyata keçiriləcək.

Layihənin rəhbəri ehtiyatda olan general-mayor Dadaş Rzayevdir. Layihə Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.

Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.

Seminar-müşavirəyə Quba, Qusar, Şabran, Xızı, Siyəzən şəhər (rayon) veteran təşkilatlarının sədrləri dəvət olunublar.

Eyni zamanda seminar-müşavirədə Xaçmaz rayon Veteranlar Təşkilatının əməkdaşlarının, həmin rayonun fəal gənclərinin, veteranlarının, müvafiq dövlət və ictimai təşkilatlarının nümayəndələrinin iştirakı nəzərdə tutulur.

# Təbii və erkən qocalıq

Qocalıq dedikdə bir orqanizmin həyatı prosesi boyu əmələ gələn morfoloji, funksional, psixi dəyişiklikləri başa düşülür. Bu canlı orqanizmin tədricən inkişaf edən və geri dönməyən struktur və dəyişiklikləridir.

Qocalıq individualdır, vahid sxemi yoxdur. Yaş dəyişiklikləri 20 yaşdan başlayır və tədricən artır.

**Yaş dövrləri:**

- 44 yaşa qədər cavan
- 45 yaşdan 59 yaşa qədər orta dövr
- 60 yaşdan 74 yaşa qədər yaşlı
- 75 yaşdan 89 yaşa qədər yaşlı
- 90yaş və daha çox uzun ömürlülük

Təqvim (yaşanmış zaman miqdarı) və bioloji yaşı ayırmalıyıq. Nə qədər insanın təqvim yaşı bioloji yaşı ötürsə, qocalma sürəti yavaş və ömrü uzun olur. Təbii qocalıq müəyyən yaş dəyişikliklərinin ardıcıllığı ilə gedir. Erkən qocalıq (tezləşmiş) bu yaş dəyişikliklərinin daha erkən inkişafı ilə xarakterizə olunur. Erkən qocalığa keçilmiş xəstlənmiş ətraf mühit faktorları, sterss, düzgün olmayan həyat tərzi, ekolioji çirklənmə və dərman preparatlarından sui istifadə halları təsir edir.

Kompesator imkanların azalması, dərmanlara həssaslığın artması əlavə təsirlərin tez-tez müşahidə olunmasına çatdırır.

Dərman maddələrini təyin edərkən çox ehtiyatlı olmalıyıq, xüsusən ürək damar, yuxugətirici və ağrıkəsici preparatlara.

Yaşlı xəstələr daha çox naturopatik müalicəyə üstünlük verirlər.

Müasir gerontologiyaya görə qocalığın birinci səbəbi molekulyar təbiətlidir. Ona görə də hüceyrə və humoral immunitetin tənzimlənməsinə fikir verməliyik.

Sərbəst radikalları məhv edən preparatlardan istifadə etməliyik. Bir çox məhsullar müntəzəm şəkildə qəbul olunduqları halda immuniteti gücləndirmək xüsusiyyətinə malikdir. Siqaret çəkilməsindən imtina etmək lazımdır.

Streslərin profilaktikası.

Uzunmüddətli xroniki stresslər insanın immun sisteminə artıq dərəcə də mənfi təsir edir. Stress nəzəriyyəsinin müəllifi olan Hans Selye stressdən qorunmağın ən yaxşı üsulu kimi fiziki hərəkətlərə məşğul olmağı təklif etmişdir. Ekoloji təmiz məhsullardan və sudan istifadə etməliyik. Xroniki yorğunluğun qarşısı alınmalıdır. Fiziki aktivlik və bədənin möhkəmləndirilməsi vacibdir.



Kifayət qədər yuxu və istirahət məsləhətdir. Mikroelementərlə olan əvəzedici terapiya yaşlı insanlar üçün xüsusən vacibdir. Sink və selen elementləri erkən qocalmağın qarşısını alır. Yaxşı balanslaşdırılmış pəhriz, fiziki aktivlik, düzgün həyat tərzi, xəstəliklərin düzgün müalicəsi, mikroelementlərlə əvəzedici terapiya insanı yaşlı dövrlərdə də sağlam saxlayır. Sağlamlıq insanın ən böyük nailiyyətidir.

***KƏMALƏ HƏSƏNOVA***
***həkim terapevt,***
***kardioloq***

# Osteoxondrozun düşməni

Osteoxondroz çox yayılmış xəstəlikdir. Bu xəstəlik zamanı onurğa sütununun fəqarələri deformasiya olunur ki, nəticədə onların arasında keçən sinirlər sıxılır.

Bu isə ağrılara və müxtəif digər pozulmalara səbəb olur.

Ağ şam ağacı yağı osteoxondrozun müalicəsində çox geniş istifadə olunur. Bu yağ osteoxondroz zamanı ağrıları, ödemi və iltihabı azaldır, yerli qan dövranını yaxşılaşdırır.

Osteoxondroz zamanı ağ şam ağacı yağı massaj zamanı istifadə olunur. Bunun üçün 10 damcı yağ massaj üçün istifadə olunan vasitəyə (yağ, krem və s.) əlavə olunur.



Həmçinin ağ şam ağacı yağını kompress şəklində də istifadə etmək olar. Bunun üçün 10 damcı yağ pambıq parçaya damızdırılır və ağrıyan yerə qoyulur.

Şam ağacı yağını müalicəvi vannalara da əlavə etmək olar. Bunun üçün 10-15 damcı yağ yarım stəkan südə əlavə olunur, qarışdırılır, vannaya tökülür (su ılıq olmalıdır - 38 C). Belə vannanı 30 dəqiqə ərzində qəbul edin.

# Göbələyin bilmədiyiniz faydaları



Qida dəyərinə görə göbələklər ətdən, meyvə və tərəvəzlərdən geri qalmırlar.

Göbələklər zülal və karbohitratlarla, aminturşularla, B, C, E, PP, D, fosfor, kalium, sink, dəmir, kalsium, yod, fosfor, fol turşusu ilə zəngindir.

Lakin göbələkdə yağlar az olduğu üçün onlar azkalorili qida sayılır və arıqlamaq məqsədilə pəhriz saxlayanlar göbələkdən istifadə edə bilərlər.

Göbələyin tərkibində olan lesitin orqanizmdə xolesterinin yığılmasına mane olur. Bu səbəbdən göbələklər ürək-damar xəstəlikləri və müxtəlif maddələr mübadiləsi pozğunluqları zamanı çox xeyirlidir.

Ateroskleroz, piylənmə, diabet, hipertoniya və s. xəstəliklərinin profilaktikası üçün göbələklərdən istifadə edilməsi yaxşı effekt verir.

Sink və B qrupu vitaminlərlə zəngin olduğu üçün göbələklər fiziki və əgli yorğunluq, stress, gərginlik zamanı insan orqanizminə çox yaxşı kömək edir.

Bundan əlavə göbələklər xüsusi maddələr - antioksidantlarla olduqca zəngindir. Bu maddələr onkoloji xəstəliklərdən əziyyət çəkən insanlara kömək edir.

ABŞ-nın Milli xərçəng mərkəzinin alimləri sübüt ediblər ki, göbələklərdə xərçəng əleyhinə olan xüsusi maddələr var. Misal üçün, alimlərin fikrinə görə, şampinyonlardan istifadə olunması qadınları süd vəzisi xərçəngindən qoruyur.



**Baş redaktor**
Ülvi İBRAHİMLİ
**Məsul katib**
Səidə ABDULLAYEVA

Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.
**Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti

"Azərbaycan Veteranı" qəzeti.
**VÖEN:** 1701285981
verilmə tarixi - 23.11.2011

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34
**Əlaqə telefonu:** 012 440-21-08
**e-mail:** az.veteran@mail.ru
**Dövlət qeydiyyat nömrəsi** - 3486
**Dövlət qeydiyyat tarixi** - 19.10.2011

Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.
Qiyməti 50 qəpik
Tiraj: 1250